**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin**
**2017-ci il ərzində xidməti fəaliyyətinə dair**

**H E S A B A T I**

## I. Ümumi hissə

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və onun strukturuna daxil olan gömrük orqanları 2017-ci ildə öz fəaliyyətini Azərbaycan Respublikasının Konstitusiyasını, Gömrük Məcəlləsini, “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarını, Komitə sədrinin 30 yanvar 2012-ci il tarixli 01/04 nömrəli əmri ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 2012-2017-ci illər üzrə inkişafına dair Fəaliyyət Planı”nı və gömrük işini tənzimləyən digər normativ-hüquqi aktları işdə rəhbər tutaraq tərtib olunmuş iş planı əsasında qurmuşdur.

Hesabat dövründə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq fərman və sərəncamları əsasında gömrük sistemində əsaslı islahatlar aparılmış, şəffaflığ təmin olunmuş, malların bəyan olunması elektron qaydada həyata keçirilməsi daha da təkmiləşdirilmişdir. Bununla yanaşı ötən dövr ərzində milli iqtisadiyyatın stimullaşdırılması, dövlətimizin iqtisadi siyasətindən irəli gələn aidiyyəti vəzifələrin icrası, Azərbaycan Respublikasının gömrük sərhədindən malların və nəqliyyat vasitələrinin keçirilməsi qaydalarına riayət olunmasının təmin edilməsi, ticarət-iqtisadi münasibətlərdə gömrük tənzimlənməsi vasitələrinin tətbiqi, gömrük ödənişlərinin alınaraq dövlət büdcəsinə köçürülməsinin təmin olunması, valyuta nəzarətinin həyata keçirilməsi, iqtisadi təhlükəsizliyin təmin olunması və daxili bazarın qorunması, gömrük nəzarətinin təşkili və möhkəmləndirilməsi, gömrük işi sahəsində cinayətlər və digər hüquqpozmalar ilə mübarizə, narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni keçirilməsi hallarının qarşısının alınması, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, infrastrukturun inkişaf etdirilməsi, kadr hazırlığının artırılması, beynəlxalq əlaqələrin inkişaf etdirilməsi sahəsində zəruri işlər görülmüşdür.

İlk növbədə qanunvericilik bazasının təkmilləşdirilməsi prosesinə önəm verərək müvafiq normativ-hüquqi aktların hazırlanması işi davam etdirilmiş və Beynəlxalq Konvensiyaların müddəaları nəzərə alınmaqla, gömrük nəzarəti və rəsmiləşdirilmə prosedurlarının yeni normalara uyğunlaşdırılması, proqressiv gömrük alətlərinin milli səviyyədə istifadə olan qaydalara transformasiya edilməsi, gömrük işinin həyata keçirilməsi məsələlərini tənzimləyən prosedurların daha da rasionallaşdırılması məqsədi ilə bəzi qaydalara əlavələr edilmiş, eləcə də yeni normativ sənədlər hazırlanaraq, müvafiq qaydada təsdiq edilmişdir.

## II. Büdcə gəlirləri-xərcləri və maddi-texniki bazanın möhkəmləndirilməsi

"Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında" Qanununa əsasən Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi üçün 2016-cı il ilə müqayisədə 440 milyon manat və ya 24,3 faiz artımla müəyyən edilmiş 2 milyard 250 milyon manat büdcə proqnozunun bölgüsü Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla Dövlət Gömrük Komitəsi tərəfindən hazırlanaraq təsdiq olunmuşdur. İllik büdcə proqnozu Komitə tərəfindən ərazi və ixtisaslaşdırılmış gömrük idarələri arasında bölüşdürülmüş və aylar üzrə yerinə yetirilməsinə mütəmadi olaraq nəzarət edilmişdir. 2017-ci il üçün müəyyən edilmiş 2 milyard 250 milyon büdcə proqnozu faktiki olaraq 2 milyard 608,8 milyon manat olmaqla 358,78 milyon manat və ya 115,6 faiz həcmində artıqlaması ilə yerinə yetirilmişdir.

2016-cı ilin faktiki göstəriciləri ilə müqayisədə isə 317,2 milyon manat və ya 13,8 faiz həcmində artıqlaması ilə gömrük ödənişləri toplanaraq dövlət büdcəsinə köçürülməsi təmin olunmuşdur.

Bununla yanaşı Dövlət Gömrük Komitəsinin struktur bölmələri tərəfindən 2017-ci il ərzində sərhəddə "İcazə" blanklarının verilməsinə görə 13,8 milyon manat məbləğində dövlət rüsumu toplanaraq dövlət büdcəsinə köçürülmüşdür.

Eyni zamanda 2017-ci il ərzində Mərkəzi Gömrük Ekspertizası İdarəsinə nəqliyyat vasitələrinə uyğunluq sertifikatının verilməsi üçün olunmuş müraciətlərə əsasən verilmiş uyğunluq sertifikatlarına görə 124,3 min manat həcmində dövlət rüsumu toplanaraq büdcəyə ödənişi təmin olunmuşdur.

Qeyd etmək lazımdır ki, ötən 2017-ci il ərzində idxalın həcmi 8781945,41 min ABŞ dolları, ixracın həcmi isə 13778431,87 min ABŞ dolları təşkil etmişdir.

Gömrük orqanları tərəfindən toplanan və dövlət büdcəsinə köçürülən gömrük vergi və rüsumları barədə məlumatlar mütəmadi olaraq Komitənin rəsmi internet saytına daxil edilmişdir. Dövlət büdcəsinə köçürülmüş vəsaitlər haqqında Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə üzləşmə aktı tərtib edilərək təsdiqlənmiş, həmçinin Dövlət Gömrük Komitəsi üzrə büdcə proqnozunun icrası barədə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, Azərbaycan Respublikasının Milli Məclisinə, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Maliyyə Nazirliyinə, Dövlət Statistika Komitəsinə və Azərbaycan Respublikasının Hesablama Palatasına mütəmadi olaraq məlumatlar verilmişdir.

Hesabat ilində növbəti üç il üçün proqnozlaşdırılan dövlət büdcəsi gəlirlərinin layihəsinin hazırlanması məqsədi ilə geniş iqtisadi təhlillər aparılmış və müvafiq təkliflər Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edilmiş, nəticə etibarı ilə Dövlət Gömrük Komitəsi üçün 2018-ci il üzrə 2 milyard 430 milyon manat həcmində büdcə proqnozu müəyyən edilmişdir.

Komitənin Mərkəzi aparatı və Komitənin strukturuna daxil olan gömrük orqanlarının 2017-ci il üçün büdcə və büdcədənkənar vəsaitlərinin xərc smetaları Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılaraq təsdiq edilmiş, gömrük orqanlarına və aidiyyəti xəzinədarlığa təqdim olunmuşdur.

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən kotirovka prosedurları keçirilərək onların yekun protokolları Azərbaycan Respublikasının Satınalmalar üzrə Dövlət Agentliyinə təqdim edilmişdir.

2017-ci ildə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin saxlanılması üçün təsnifata uyğun olaraq, xərc maddələri üzrə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən büdcə vəsaiti ayrılmış və xərclənməsinə nəzarət təmin edilmişdir. Qeyd etmək

lazımdır ki, gömrük əməkdaşlarına dekabr ayı üçün əmək haqqı üzrə vəsait az ayrıldığına görə ödəniş tam təmin olunmamışdır.

İnfrastrukturun yaxşılaşdırılması ilə əlaqədar qeyd etmək lazımdır ki, hesabat dövründə Komitənin Tovuz Gömrük İdarəsinin "Böyük-kəsik" və Xaçmaz Gömrük İdarəsinin "Yalama" gömrük postunda quraşdırılmış HCVT 60-29 tipli rentgen avadanlığının istifadəsi üçün çəkilmiş dəmir yolu xətləri Komitənin balansına götürülmüş və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05 may 2017-ci il tarixli 302S nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikası Dəmir Yolları QSC-nin balansına verilmişdir. Eyni zamanda Zaqatala rayonunda fındıq məhsullarında aflatoksinin təyin olunması üçün Mərkəzi Gömrük Ekspertizası İdarəsinin "Zaqatala" gömrük labarotoriyası yaradılmış və avadanlıqlarla təchiz edilmiş, Qəbələ şəhərində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının kompleks tikintisinin Tədris binasında F-1 və F-2 bloklarında işlər davam etdirilmişdir.

Mütəmadi olaraq tabeli gömrük orqanları texniki ləvazimatlar, geyim dəstləri, zəruri avadanlıqlar və inventarlarla təchiz edilmişlər.

## III. Qanunvericiliyin təkmilləşdirilməsi

Hesabat ilində Dövlət Gömrük Komitəsi tərəfindən bir sıra qərar, qanun və sərəncam layihələri hazırlanmış və müvafiq qaydada qüvvəyə minmişdir.

Hesabat dövründə yerli istehsal üçün tələb olunan xammalın ölkədən çıxarılmasının qarşısının alınması yerli istehsalın qorunması, ölkə ərazisində istehsal edilən məhsulların xarici bazarlara əlverişli çıxışını təmin etmək məqsədilə Dövlət Gömrük Komitəsi ilə razılaşdırılmış təkliflər nəzərə alınmaqla "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə Gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 12 aprel tarixli 80 nömrəli qərarında dəyişikliklər edilməsi barədə 10 yanvar 2017-ci il tarixli 2 nömrəli qərarı qüvvəyə minmiş və qərarda göstərilən mallara 5 il müddətinə ixrac gömrük rüsumlarının tətbiqinə başlanılmışdır.

Azərbaycan Respublikasında mülki aviasiyanın daha da inkişaf etdirilməsi məqsədi ilə Dövlət Gömrük Komitəsi ilə razılaşdırılmış təkliflər nəzərə alınmaqla "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə Gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 12 aprel tarixli 80 nömrəli qərarında dəyişikliklər edilməsi barədə 12 yanvar 2017-ci il tarixli 5 nömrəli qərarı qüvvəyə minmiş və qərarda qeyd edilən mallara dair müvafiq güzəştlərin tətbiqinə başlanılmışdır.

Eyni zamanda, yeni yaradılmış istehsal sahələrinin xammal tələbatının ödənilməsi və məhsul istehsalının rəqabətədavamlılığının artırılmasını təmin etmək üçün ölkə ərazisindən aşağı qiymətlə ixrac edilən qiymətli ağac məhsullarına (xammala) ixrac rüsumlarının tətbiqi məqsədilə Dövlət Gömrük Komitəsi ilə razılaşdırılmış təkliflər nəzərə alınmaqla "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə Gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 12 aprel tarixli 80 nömrəli qərarında dəyişikliklər edilməsi barədə 28 mart 2017-ci il tarixli 113 nömrəli qərarı qüvvəyə minmiş və qərarda göstərilən mallara müəyyən edilmiş hədlərdə ixrac gömrük rüsumunun tətbiqinə başlanılmışdır.

Dövlət Gömrük Komitəsi ilə razılaşdırılmış təkliflər nəzərə alınmaqla "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə Gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 12 aprel tarixli 80 nomrəli qərarında

dəyişikliklər edilməsi barədə 20 aprel 2017-ci il tarixli 160 nömrəli qərarı qüvvəyə minmiş və qərarda qeyd edilən tinglərə müvafiq güzəştlərin tətbiqinə başlanılmışdır.

Azərbaycan Respublikasında velosiped istehsalının təşviqi, daxili bazarın qorunması və yeni iş yerlərinin açılması məqsədilə "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli qərarında dəyişiklik edilməsi barədə 21 iyun 2017-ci il tarixli 267 saylı Qərarı qüvvəyə minmiş və qərarda qeyd edilən velosiped istehsalı üçün tələb olunan ehtiyat hissələrinə dair müvafiq güzəştlərin tətbiqinə başlanılmıdır.

Qeyd olunalarla yanaşı hesabat dövründə bir sıra qərar layihələrinə Komitə tərəfindən rəy və təkliflər bildirildikdən sonra müvafiq qaydada qüvvəyə minmişdir.

Belə ki, Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli qərarında dəyişiklik edilməsi barədə 22 fevral 2017-ci il tarixli 59 saylı Qərarı qüvvəyə minmiş və Azərbaycan Respublikasının 2017-ci il üzrə yanacaq enerji balansına uyğun olaraq, Azərbaycan Respublikası Energetika Nazirliyinin təsdiqedici sənədləri əsasında "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinə elektrik enerjisinin istehsalı üçün idxal olunan mazut 2018-ci ilin yanvarın 1-dək idxal rüsumundan azad edilmişdir.

Həmçinin, Dövlət Gömrük Komitəsi ilə razılaşdırılmış təkliflər nəzərə alınmaqla "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə Gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 12 aprel tarixli tarixli 80 nömrəli qərarında dəyişikliklər edilməsi barədə 3 noyabr 2017-ci il tarixli 479 nömrəli qərarı qüvvəyə minmiş və qərarda qeyd edilən 0405 kodda təsnif olunan malların tarif dərəcəsi 2019-cu ilin 31 dekabr tarixinədək 15 faiz idxal gömrük rüsumundan 5 faiz idxal gömrük rüsumuna endirilmişdir.

Eyni zamanda Dövlət Gömrük Komitəsi ilə razılaşdırılmış təkliflər nəzərə alınmaqla "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə Gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 12 aprel tarixli 80 nömrəli qərarında dəyişikliklər edilməsi barədə 14 iyul 2017-ci il tarixli 293 nömrəli qərara əsasən qeyd edilən benzin növlərinə müvafiq güzəştlərin tətbiqinə başlanılmışdır (90 gün müddətinə).

Dövlət Gömrük Komitəsi ilə razılaşdırılmış təkliflər nəzərə alınmaqla "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə Gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 12 aprel tarixli 80 nömrəli qərarında dəyişikliklər edilməsi barədə 2 avqust 2017-ci il tarixli 333 nömrəli qərarı qüvvəyə minmiş və qərarda qeyd edilən reaktiv mühərrik üçün yanacaqlara dair müvafiq güzəştlərin tətbiqi 3 noyabr 2017-ci il tarixli 478 saylı qərar ilə 2018-ci ilin 31 yanvar tarixinədək uzadılmışdır.

Dövlət Gömrük Komitəsi ilə razılaşdırılmış təkliflər nəzərə alınmaqla "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə Gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 12 aprel tarixli 80 nömrəli qərarında dəyişikliklər edilməsi barədə 10 avqust 2017-ci il tarixli 327 nömrəli qərarı qüvvəyə minmiş və qərarda qeyd edilən reaktiv mühərrik üçün yanacağa dair müvafiq güzəştlərin tətbiqinə başlanılmışdır (90 gün müddətinə).

Qeyd edilənlərlə yanaşı aşağıdakı qanunvercilik aktları hazırlanmış və baxılmaq üçün aidiyyəti üzrə təqdim olunmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il tarixli 305 saylı Qərarı ilə təsdiq edilmiş "Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə

tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları”nda dəyişiklik edilməsi barədə Qərar layihəsi ,

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 28 dekabr tarixli 212 nömrəli qərarı ilə təsdiq edilmiş “Mobil cihazların qeydiyyatının aparılması Qaydası”nda dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı layihəsi;

“Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 25 aprel tarixli 646-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2017-cı il 1 may tarixli 1357 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının qanunlarının, Azərbaycan Respublikası Prezidentinin aktlarının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarının, Dövlət Gömrük Komitəsinin normativ hüquqi aktlarının və normativ xarakterli aktların həmin Fərmana uyğunlaşdırılmasına dair təkliflər olaraq “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin hesabına daxil olan vəsaitdən istifadə Qaydası”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı layihəsi;

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 19 oktyabr tarixli 237 nömrəli qərarı ilə təsdiq edilmiş “Dövlət mülkiyyətinə keçirilmiş malların və nəqliyyat vasitələrinin gömrük hərraclarında satılması Qaydaları”nda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı layihəsi;

Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Gömrük orqanlarında xidmət haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu layihəsi;

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 939 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının Nizamnaməsi”ndə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı layihəsi;

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı layihəsi,

Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu layihəsi, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu” və “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu” layihələri;

“Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xarici dövlətlərdəki nümayəndələrinin (gömrük ataşelərinin) təyin edilməsi və onların fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 16 dekabr 2005-ci il tarixli 331 nömrəli Fərmanının 4-cü hissəsinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 13 aprel tarixli 83s nömrəli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlardakı diplomatik nümayəndəliklərində və konsulluqlarında çalışan işçilərin aylıq əmək haqqı sxemi”ndə dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncam layihəsi;

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 iyul tarixli 1523 nömrəli Fərmanının 1.3-cü bəndinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 iyul 2017-ci il tarixli 534s nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Dövlət Gömrük Komitəsi tərəfindən hazırlanmış və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin rəy və təklifləri əsasında ümumiləşdirilmiş “Gömrük orqanlarının vəzifəli şəxslərinin attestasiyasının keçirilməsi Qaydası”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı layihəsi,

Gömrük qanunvericiliyinin təkmilləşdirilməsi məqsədilə “Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu layihəsi hazırlanmış və baxılmaq üçün aidiyyəti üzrə təqdim olunmuşdur.

“Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 866 nömrəli Fərmanının 1.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə hazırlanmış “Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanun layihəsinə dair təkliflər aidiyyəti dövlət qurumuna göndərilmişdir.

Azərbaycan Respublikası Prezidentinin “Azad iqtisadi zonalar yaradılması işinin sürətləndirilməsi haqqında” 2017-ci il 31 mart tarixli 2940 nömrəli Sərəncamına uyğun olaraq yaradılmış işçi qrupunun görüşlərində iştirak olunmuş, Ələt Azad iqtisadi zonası haqqında Qanun layihəsinə dair Dövlət Gömrük Komitəsinin rəy və təklifləri təqdim olunmuşdur.

Həmçinin, Azərbaycan Respublikasının “Müvəqqəti İdxal Konvensiyası”na qoşulmasına dair təkliflər aidiyyəti dövlət qurumlarına və “Ələt azad zonası haqqında” Azərbaycan Respublikasının Qanunu layihəsinə dair təkliflər aidiyyəti üzrə baxılması üçün Azərbaycan Respublikasının Milli Məclisinə göndərilmişdir.

“Azərbaycan Respublikasına turist axınının sürətləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 20 fevral 2017-ci il tarixli, 2677 nömrəli Sərəncamının 1-ci maddəsinin müddəalarının həyata keçirilməsi məqsədi ilə işlənib hazırlanmış “Sərhəd keçid məntəqələrindən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sürətli keçidi ilə bağlı hərəkət zolaqlarının müəyyən edilməsi və hərəkət axınının idarə edilməsi üzrə Texnoloji Sxem” hazırlanmış, Dövlət Gömrük Komitəsi və Dövlət Sərhəd Xidməti ilə razılaşdırılaraq müvafiq qaydada xidməti istifadəyə yönləndirilmişdir.

İctimaiyyəti gömrük işi sahəsində qüvvədə olan qanunvericilik aktları ilə daha operativ surətdə məlumatlandırmaq məqsədi ilə yeni qəbul edilmiş normativ-hüquqi aktların Komitənin internet saytında yerləşdirilməsi təmin edilmişdir.

## IV. Tarif tənzimlənməsi və valyuta nəzarəti

Hesabat dövründə Azərbaycan Respublikasında yeni yaradılmış istehsal sahələrinin inkişafı və genişləndirilməsi, son məhsul istehsalının artırılması və xarici bazarlara çıxışa əlverişli şəraitin yaradılmasını, həmçinin daxili bazarın qorunmasını təmin etmək məqsədilə tətbiq edilən gömrük tariflərinin təkmilləşdirilməsi zərurəti yarandığını, eyni zamanda, idxal mallarına münasibətdə gömrük-tarif mexanizminin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasında tətbiq olunan gömrük idxal rüsumlarının çoxpilləli sistemdən (0%, 0,5%, 1%, 3%, 5%, 10%, 15%) azpilləli sistemə (0%, 5%, 15%) keçirilməsini təmin etmək üçün Komitə tərəfindən Malların Təsviri və Kodlaşdırılması üzrə Harmonik Sistemin 2017-ci il variantı

əsasında “Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərar layihəsi aidiyyəti dövlət orqanları ilə birgə hazırlanmış və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17.11.2017-ci il tarixli 500 nömrəli qərarı ilə təsdiq edilməklə 01 yanvar 2018-ci il tarixdən hüquqi qüvvəyə minmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına əsasən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sisteminə (VAİS) gömrük rüsumları və Xarici İqtisadi Fəaliyyətin Mal Nomenklaturası üzrə müvafiq əlavə və dəyişikliklər edilmişdir.

2017-ci il ərzində fiziki şəxslər və müvəkkil banklar tərəfindən Azərbaycan Respublikasının gömrük sərhəd buraxılış məntəqələrindən valyuta sərvətlərinin keçirilməsinə aidiyyəti üzrə nəzarət edilmişdir.

Hesabat dövrü ərzində “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa və “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasında, terrorçuluğun maliyyələşdirilməsində, transmilli mütəşəkkil cinayətkarlığı, habelə silahlı separatizmi, ekstremizmi və muzdluluğu dəstəkləməsində, narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirakı ehtimal olunan, maliyyə əməliyyatlarının aparılması zamanı eyniləşdirmə məlumatlarının açıqlanması tələb olunmayan dövlətlərin (ərazilərin) siyahısı”na edilən dəyişikliklər barədə məlumatlar aidiyyəti üzrə gömrük sərhəd buraxılış orqanlarına göndərilmişdir. Zəruri məlumatların Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Maliyyə Monitorinqi Xidmətinə, həmçinin fiziki şəxslər tərəfindən valyuta sərvətlərinin gömrük sərhəd buraxılış məntəqələrindən keçirilməsi barədə aidiyyəti məlumatlar qanunvericiliklə nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikasının Mərkəzi Bankına göndərilməsi təmin edilmişdir.

2017-ci il ərzində neft konsorsiumları ilə işləyən şirkətlərin müraciətlərinə əsasən “Hasilatın Pay Bölgüsü haqqında” Sazişlər üzrə işləyən podratçı və subpodratçı şirkətlərə “İdxal-ixrac rüsum və vergilərindən azad olma haqqında” sertifikatlar təqdim olunmuşdur.

Eyni zamanda ölkə ərazisindən ixrac olunan malların müqabilində təsərrüfat subyektləri tərəfindən 180 gün ərzində valyuta sərvətlərinin bəyannamədə qeyd olunmuş məbləğdə ölkə ərazisinə gətirilməsinə nəzarət işi gücləndirilmişdir.

## V. Gömrük nəzarətinin təşkili

2017-ci il ərzində gömrük nəzarətinin həyata keçirilməsi “bir pəncərə” prinsipinə uyğun olaraq təmin edilmişdir.

Ərazi və ixtisaslaşdırılmış gömrük idarələrində istismarda olan texniki nəzarət vasitələrinin səmərəli istifadə edilməsi və malların gömrük sərhədindən sürətli keçidi təşkil edilmiş, il ərzində mövcud olan texniki nəzarət vasitələrində yaranmış müxtəlif nasazlıqlar və çatışmazlıqlar barədə məlumatlara dərhal reaksiya verilmiş, mövcud sahələr üzrə aidiyyəti mütəxəssislər dəvət edilməklə həmin çatışmamazlıqlar operativ surətdə aradan qaldırılmışdır.

Hesabat dövründə Mobil gömrük bölmələri tərəfindən Azərbaycan Respublikasının gömrük ərazisində yük daşıyan nəqliyyat vasitələrinin üzərinə 155986 ədəd mexaniki-elektron kilid (GPS) bağlanaraq təyinat yerinə çatdırılmışdır. Həmin nəqliyyat vasitələrinin müəyyən olunmuş marşrut xətti üzrə hərəkəti Komitənin Hədəf Mərkəzinin əməkdaşları tərəfindən “GPS

monitorinq" sistemi vasitəsi ilə müntəzəm olaraq müşahidə altında saxlanılmış, marşrutdan çıxma və digər pozuntu hallarının qarşısı operativ şəkildə alınmışdır. Belə ki, avtomobillərlə və texniki nəzarət vasitələri ilə təmin olunmuş əməkdaşlar Hədəf Mərkəzindən verilən məlumatlar əsasında marşrut xəttindən çıxan və ya müəyyən olunmamış yerlərdə uzun müddət ərzində dayanan nəqliyyat vasitələrinin dayanmalarının səbəblərini araşdıraraq müvafiq tədbirlər həyata keçirmişlər. Hesabat dövründə Hədəf Mərkəzi tərəfindən 339 yük avtomobilinin marşrutdan çıxması faktı aşkarlanmışdır. Həmin faktlara əsasən 54 (əlli dörd) nəqliyyat vasitəsinin marşrutdan çıxması mobil bölmələr tərəfindən aktlaşdırılmış və müvafiq gömrük orqanının qərarına uyğun olaraq inzibati qaydada cərimə olunmuşdur. İnzibati Xətalar Məcəlləsinin 487-ci maddəsinə uyğun olaraq aidiyyəti üzrə cərimə tətbiq olunmuşdur.

"Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 04 mart 2016-cı il tarixli 1853 nömrəli Sərəncamının icrası və xarici ticarətdə biznes mühitinin daha da yaxşılaşdırılması məqsədi ilə mövcud Sərəncamın 1.1, 2.4 və 6-cı bəndlərində, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 iyul tarixli 263 nömrəli qərarı ilə təsdiq edilmiş "Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları"nda, Azərbaycan Respublikasının ərazisinə gətirilən və aparılan ərzaq məhsullarının təhlükəsizliyi və keyfiyyəti üzərində həyata keçirilən nəzarət prosedurlarının sadələşdirilməsi, həmin nəzarəti həyata keçirən dövlət qurumlarının fəaliyyətinə dair qanunvericilik aktlarında nəzərdə tutulmuşdur. Nəzarət funksiyalarının icrasının institusional baxımdan daha da təkmilləşdirilməsi və bu sahədə təkrarçılığın aradan qaldırılması, ərzaq məhsullarının təhlükəsizliyi və keyfiyyətinə nəzarətin beynəlxalq normalara uyğunlaşdırılmasına dair qanunvericilik aktlarında və "Bitki və bitkiçilik məhsullarının idxalına və ixracına, təkrar ixracına, Azərbaycan Respublikasının ərazisində daşınmasına və dövriyyəsinə idxal karantin icazəsinin, təkrar ixracı fitosanitar sertifikatı və fitosanitar sertifikatlarının verilməsi Qaydaları"nda və mallara verilən mənşəyini təsdiq edən sənədlərin Dövlət Gömrük Komitəsinə onlayn rejimdə təqdim edilməsi imkanın yaradılması ilə əlaqədar əlavə və dəyişikliklərin edilməsinə dair təkliflər aidiyyəti dövlət qurumuna göndərilmişdir.

Hesabat dövründə dövlət sərhədinin buraxılış məntəqələrindən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sürətli keçidini təmin etmək məqsədilə xüsusi ayrılmış hərəkət zolaqlarının müəyyən edilməsi üçün müvafiq infrastrukturun yaradılmışdır. Xüsusi ayrılmış hərəkət zolaqlarının nişanlanması və hər kəsin yaxşı görə biləcəyi məlumatlandırma lövhələrində hərəkət istiqamətlərinin əks etdirilməsi və yarana biləcək sıxlığın qarşısının alınması ilə bağlı Gömrük və Sərhəd Xidmətlərinin qarşılıqlı fəaliyyət göstərərək əlaqələndirmə işlərini daha da təkmilləşdirmələri üçün addımlar müzakirə edilmiş və nəticədə Rusiya Federasiyası, Türkiyə Respublikası, Gürcüstan və İran İslam Respublikası ilə dövlət sərhədinin buraxılış məntəqələrində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sürətli keçidinin təmin edilməsi məqsədi ilə piyada və sərnişin-nəqliyyat xətlərində gömrük nəzarətinin daha effektiv həyata keçirilməsi üçün ixrac və idxal üzrə "Yaşıl kanal" və "Qırmızı kanal" sözlərini əks etdirən lövhələr quraşdırılmışdır. Keçid kanallarının istiqamətverici lentlərlə ayrılması və kanallara girişdə (yerdə) yaşıl və qırmızı zolaqların çəkilməsi təmin edilmişdir.

2017-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 29 dekabr 2006-cı il tarixli 280 nömrəli qərarı ilə təsdiq edilmiş "Bitki və bitkiçilik məhsullarının idxalına və ixracına, təkrar ixracına, Azərbaycan Respublikasının ərazisində daşınmasına və dövriyyəsinə idxal karantin icazəsinin, təkrar ixracat fitosanitar sertifikatı və fitosanitar sertifikatlarının verilməsi

Qaydaları"nın 3.8-ci bəndinin icrasına nəzarət gücləndirilmişdir. Eyni zamanda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 iyul 2014-cü il tarixli, 263 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları"nın 2.6.6 və 2.6.7 bəndinin müddəalarına və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 16 avqust 2005-ci il tarixli, 154 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində standartlara və tələblərə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nın tələblərinə nəzarətin daha da gücləndirilməsi ilə bağlı aidiyyəti gömrük orqanlarına müvafiq qaydada göstəriş verilmişdir.

Azərbaycan Respublikasının Prezidentinin 31.08.2016-cı il tarixli 1378 saylı Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Rusiya Federal Gömrük Xidməti arasında müəyyən növ mallara münasibətdə gömrük nəzarətinin nəticələrinin qarşılıqlı tanınması haqqında Protokol"un müddəalarının icrası ilə əlaqədar, həmin Protokola əlavə edilmiş manifest formasının həm elektron, həm də kağız üzərində yazılı formada tətbiq edilməsinə başlanılmışdır.

"Azərbaycan Respublikası ərazisində radiasiya təhlükəsizliyinə nəzarəti gücləndirmək tədbirləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 iyul 1997-ci il tarixli, 76 nömrəli Qərarına əsasən Dövlət Gömrük Komitəsinin struktur bölmələrinin balansında olan radioaktiv mənbəli avadanlıqlar, baxış-rentgen texnikaları və yoxlama baxış sistemləri, habelə digər ionlaşdırıcı şüa mənbəli cihazlar haqqında 2016-cı il üçün məlumatlar (inventarlaşma aktları) Fövqəladə Hallar Nazirliyinin Nüvə və Radioloji Fəaliyyətinin Tənzimlənməsi üzrə Agentliyinə təqdim edilmişdir.

Hesabat dövründə BYD kitabçası tətbiq edilməklə beynəlxalq yük daşımaları haqqında (1975-ci il BYD Konvensiyası) Gömrük Konvensiyasının 9-cu Əlavəsinə əsasən BYD kitabçasından istifadə edilməklə beynəlxalq yük daşımalarında iştirak etmək üçün 16 (on altı) hüquqi və 1 (bir) fiziki şəxsə Beynəlxalq Yük Daşımalarına dair İcazələr verilmiş, BYD kitabçasından istifadə edilməklə beynəlxalq yük daşımalarında iştirak etmək üçün 1 (bir) fiziki və 5 (üç) hüquqi şəxsə verilən İcazələr ləğv edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 21 may 2016-cı il tarixli 920 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Malların və nəqliyyat vasitələrinin gömrük sərhəddindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə Qaydaları"na uyğun olaraq gömrük sərhəd buraxılış məntəqələrindən keçirilən mallar və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi baxımından münasibətləri tənzimləyən müddəalarının həyata keçirilməsi ilə bağlı 20-dən artıq təsərrüfat subyektinə onların müraciətləri nəzərə alınmaqla "Yaşıl dəhliz" buraxılış sistemindən istifadəyə Komitə sədrinin müvafiq Sərancamı əsasında icazə verilmişdir.

Bununla yanaşı "Rüsumsuz ticarət mağazalarının yaradılması və onların fəaliyyətinin tənzimlənməsi Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 oktyabr 2013-cü il tarixli, 318 nömrəli Qərarına əsasən "Cahan" Məhdud Məsuliyyətli Cəmiyyətinə Naxçıvan Dövlət Gömrük Komitəsi Culfa Gömrük İdarəsinin "Culfa"gömrük sərhəd buraxılış məntəqəsinin ərazisində, Az Duty Free Shops LTD" Məhdud Məsuliyyətli Cəmiyyətinə Balakən Gömrük İdarəsinin "Mazımçay" gömrük sərhəd buraxılış məntəqəsinin ərazisində, Tovuz Gömrük İdarəsinin "Sınıq Körpü", "Sadixli" və Xaçmaz Gömrük İdarəsinin "Samur", "Şirvanovka", "Xanoba" gömrük sərhəd buraxılış məntəqələrinin ərazisində rüsumsuz ticarət mağazasının yaradılması ilə bağlı İcazə verilmişdir.

Ölkə ərazisinə gələn turistlərin Azərbaycan Respublikasının qanunvericilik aktları ilə ilkin qaydada tanış olmalarını təmin etmək məqsədilə normativ-hüquqi aktların müddəaları əsasında

azərbaycan, ingilis və ərəb dillərində hazırlanmış “Gömrük məlumat kitabçası” “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinə, Heydər Əliyev adına Beynəlxalq Hava Limanına və gömrük sərhəd buraxılış postlarına göndərilmişdir.

Hesabat dövründə Astara Gömrük İdarəsində GMO labaratoriyası yaradılmış və ümumilikdə GMO labaratoriyalarının sayı 8-ə çatdırılmışdır.

Hal-hazırda respublika ərazisinə idxal olunan yeyinti məhsullarında, toxumlar və başqa əkin matareaillarında GMO elementlərinin aşkar edilməsi üzrə ekspertizalar aparılır. 2017-ci il ərzində 2198 nümunədə 6594 GMO analizləri aparılmışdır.

2017-ci ildə Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 322-ci maddəsinin məqsədləri üzrə 52261müxtəlif sınaq və analizlər aparılmış, onlardan 18681-i nəqliyyat vasitələrinin sınağı ilə bağlı olmuşdur. Eyni zamanda müraciətlər əsasında müxtəlif mallara 1881 faktiki baxış keçirilmişdir.

Kimyəvi məhsullarının ekspertizası nəticəsində 7 halda narkotik maddələrin istehsalında prekursor kimi istifadə olunan 20738,5 litr xlorid turşusunun, 50400,38 kq toluolun, 11400 kq asetonun, 100,1 kq dietil efirinin, 1631,4 kq sulfat turşusunun Azərbaycan Respublikasının “Azərbaycan Respublikasının ərazisinə dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan prekursorların siyahılarının təsdiq edilməsi haqqında” 960-HQ nömrəli 28.06.2005-ci il tarixli Qanunun təsir dairəsinə düşdüyü müəyyən olunmuşdur.

## VI. Gömrük işi sahəsində hüquqpozmalara qarşı mübarizə tədbirləri

2017-ci ildə Azərbaycan Respublikası gömrük orqanlarının hüquq-mühafizə fəaliyyəti əsasən qabaqcıl dünya təcrübəsinə əsaslanan metodların, o cümlədən texniki vasitə və informasiya texnologiyalarının tətbiqi, əməliyyat-axtarış və qabaqlayıcı-profilaktik tədbirlərin gücləndirilməsi, habelə hüquqpozmalara qarşı mübarizədə əməkdaşlığın genişləndirilməsi yolu ilə Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin təmin edilməsinə, qaçaqmalçılıq kanallarının aşkar və ləğv olunmasına, hüquqpozma törətmiş şəxslərin müvafiq məsuliyyətə cəlb edilməsinə yönəlmişdir.

Qaçaqmalçılığa və digər gömrük hüquqpozmalarına qarşı mübarizənin səmərəliliyinin artırılmasında beynəlxalq və regional əməkdaşlığın xüsusi əhəmiyyəti nəzərə alınmaqla, 2017-ci ildə ÜGT, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi, GUAM, MARİƏM (Mərkəzi Asiya Regional İnformasiya Əlaqələndirmə Mərkəzi) kimi mötəbər beynəlxalq və regional təşkilatlarla, xarici gömrük xidmətlərinin hüquq mühafizə bölmələri ilə ikitərəfli və çoxtərəfli əlaqələrin genişləndirilməsi işi davam etdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 24 iyun 2013-cü il tarixli 2966 saylı Sərəncamı ilə təsdiq edilmiş “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı”nın icrasını təmin etmək və gömruk sərhədindən narkotiklərin qanunsuz keçirilməsinin qarşısını almaq məqsədilə gömrük orqanları tərəfindən (o cümlədən, digər hüquq-mühafizə orqanları ilə birlikdə) görülmüş qətiyyətli tədbirlər nəticəsində 2017-ci il ərzində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə əlaqədar 210 fakt aşkar olunmuşdur. Bu faktlar üzrə ümumilikdə 2 ton 714 kq 962 qram narkotik vasitə və psixotrop maddələr və onların prekursorları o cümlədən 100 kq 517 qram heroin, 13 kq 714

qram həşiş, 20 kq 248 qram marixuana, 83,502 qram metadon, 16 kq 675 qram tiryək, 1,8 qram brotizolam, 0,2 qram fenazepam, 12,81 qram MDMA, 0,34 qram metilendioksiamfetamin, 3 qram zolpidem, 5,727 qram alprazolam, 19,85 qram diazepam, 130 qram fenobarbital, 12,525 qram klonazepam, 970 qram metamfetamin, 7,5 qram xlordiazepoksid, 5 kq 516 qram kalium permanqanat və digər maddələr qanunsuz dövriyyədən çıxarılmışdır. Bununla yanaşı hesabat dövründə Daxili İşlər orqanlarının əməkdaşları ilə keçirilən birgə əməliyyat tədbiri nəticəsində 2 fakt üzrə 2 ton 557 kq yabanı halda bitən çətənə kolu aşkar edilmişdir.

2017-ci il ərzində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən 232 nəfər: 197-i kişi və 35-i qadın olmaqla 180 Azərbaycan vətəndaşı və 52 əcnəbi (39 İran, 5 Rusiya, 2 Türkiyə, 3 Gürcüstan, 1 Hindistan, və 1 Əfqanıstan vətəndaşı) barəsində müvafiq tədbirlər görülmüş, 29 halda bu əmələri törədən cinayətkar dəstə ifşa edilmişdir.

184 halda narkotiklər İrandan, 5 halda Rusiyadan, 1 halda Türkiyədən, 1 halda Kanadadan (poçt göndərişləri vasitəsilə), 1 halda İngiltərədən (poçt göndərişləri vasitəsilə) gətirilərkən, 2 halda İrana, 1 halda Rusiyaya, 1 halda Gürcüstana aparılarkən, 8 halda isə tranzit yolla (İran-Azərbaycan-Rusiya, İran-Azərbaycan-Gürcüstan, İran-Azərbaycan-Qazaxıstan, İran-Azərbaycan-Türkiyə marşrutları üzrə) sərhəddən keçirilərkən saxlanmışdır.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Kinoloji Mərkəzi tərəfindən təlimləndirilmiş 43 baş xidməti it narkotik vasitələrin, partlayıcı maddələrin, silah-sursat, tütün məmulatlarının və digər fərdi iyə malik olan əşyaların (pirotexniki vasitələrin) axtarışı üzrə sərhəd-buraxılış məntəqələrində gündəlik fəaliyyət göstərmişdir.

Hesabat dövründə xidməti axtarış itlərin tətbiqi nəticəsində 33 fakt üzrə 240,8 qram həşiş, 35,2 qram tiryək, 1695 qram heroin, 51 qram marixuana, 247,5 ml metadon, 13 həb metadon, 1,45 qram metamfetamin, 0,34 qram metilendioksiamfetamin-MDA, 10 həb buprenofin, 527 həb alprazolam-0.5, 20 həb tramadol-100, 10 həb jansen M10, 50 həb phenazepam aşkar olunmuşdur. Bundan əlavə sərhəd keçid postlarında qeyri-qanuni qaydada 145800 ədəd müxtəlif markalı tütün məmulatları, 975 ədəd belamor və 258 ədəd pirotexniki vasitələr əşyalarının keçirilməsi faktlarının qarşısı xidməti itlərin tətbiqi ilə alınmışdır.

2017-ci ildə gömrük orqanları tərəfindən 57 fakt üzrə 21,800 qram boldenon, 8,15 qram drostanolon, 45,25 qram matandienon, 1,25 qram methenolone, 10,25 qram nandrolon, 30 qram oksimetolon, 2 qram oxsandrolone, 1675 qram preqabalin, 13,3 qram stanozolol, 3924 qram tramadol, 11,9 qram trenbolon, 26,5 qram tropikamid, 0,4 qram erqotamin C adlı güclü təsiredici maddələr qanunsuz dövriyyədən çıxarılmışdır.

Hesabat ilində Azərbaycan Respublikası gömrük orqanları tərəfindən aşkar olunmuş 8116 gömrük qaydaları əleyhinə inzibati xəta faktları üzrə 199 hüquqi şəxs (o cümlədən 70 xarici hüquqi şəxs) və 7924 fiziki şəxs (o cümlədən 3853 xarici vətəndaş) inzibati məsuliyyətə cəlb edilmiş, göstərilən şəxslərə qarşı 881 min 603 manat cərimə tətbiq olunmaqla, dəyəri 212 min 468 manat olan mallar müsadirə edilmişdir.

Gömrük qaydaları əleyhinə inzibati xətalar əsasən malların, nəqliyyat vasitələrinin və ya onlara aid sənədlərin müəyyən edilmiş müddətdə çatdırılmaması, gömrük sərhədindən gömrük nəzarətindən gizli və kənar keçirilməsi, bəyan edilməməsi və ya düzgün bəyan edilməməsi, gömrük ödənişlərinin ödənilməsindən yayınma ilə əlaqədar olmuşdur.

“Valyuta tənzimi haqqında” Azərbaycan Respublikasının Qanununa və digər qanunvericilik aktlarına əsasən gömrük orqanları valyuta və valyuta sərvətlərinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi üzərində nəzarəti həyata keçirərkən qanunvericiliyin tələblərini pozan şəxslərdən 1 599 205 ABŞ dolları, 152 685 avro, 5000 funt sterlinq 22 241 884 rus rublu,

64 677 Azərbaycan manatı, 806 610 manat dəyərində 14 073 qram qızıl, 239 853 manat dəyərində 397 ədəd zinət əşyaları, 68 398 manat dəyərində 49 045 qram gümüş əşyalar, 150 346 manat dəyərində 185,12 karat qiymətli daşlar aşkar olunmuşdur.

Ötən dövr ərzində gömrük orqanları tərəfindən 16 310 qram civə, 301 200 manat dəyərində 300 400 ədəd CİTES obyekti olan-tibb zəlisi, 1 ədəd əl qumbarası, 120 390 manat dəyərində dərman vasitələri, 1292 manat dəyərində baytarlıq dərmanları, 2912 manat dəyərində bitki dərmanları, 22 ədəd elektroşoker, 2570 ədəd mobil telefon və 3382 ədəd mobil telefonların aksessuarları, 590 026 manat dəyərində 119 105 ədəd məişət texnikası və əşyaları, 55 ədəd odlu silahın patronu, 3 ədəd ov silahı, 967 ədəd ov silahının sursat və ləvazimatları, 41 645 qram partlayıcı maddələr, 131 4250 ədəd pirotexniki məmulatlar, 12 ədəd pnevmatik silah və 1400 ədəd pnevmatik silahın patronları, 3 ədəd qaz silahı, 90 ədəd soyuq silahlar, 64 ədəd səs-siqnal patronları, 12 ədəd zirehli texnikanın periskopu, 135 309 manat dəyərində 11 981 ədəd tibb ləvazimatları, 117 635 manat dəyərində 6 285 ədəd parfümeriya və kosmetika və külli miqdarda digər malların sərhəddən qanunsuz olaraq keçirilməsinin qarşısı alınmışdır.

Hesabat dövründə həmçinin Azərbaycan Respublikasının və xarici ölkələrin bədii, tarixi və arxeoloji sərvətlərin qorunması sahəsində 5 ədəd samovar, 25 ədəd xalça, 1 ədəd çuqun materialdan tökmə üsulu ilə hazırlanmış heykəl, 4 ədəd fransa istehsalı olan qızıl sikkə (numizmatika) hüquqpozmanın predmeti kimi saxlanılmışdır. Eyni zamanda gömrük orqanları tərəfindən saxta və ya keyfiyyətsiz mallarla mübarizə sahəsində 4 top və 13000 ədəd ofset üsulu ilə çap edilmiş müxtəlif əmtəə nişanlarının etketləri aşkar edilərək hüquqpozmanın predmeti kimi götürülmüş və toplanmış materiallar qanunvericiliyə uyğun olaraq sonrakı istintaq hərəkətləri üçün məhkəmə orqanlarına göndərilmişdir.

Ötən il ərzində gömrük orqanları tərəfindən alkoqollu içkilərin, etil (yeyinti) spirtinin və tütün məmulatlarının idxalı zamanı vergidən yayınma və aksiz markalarının tətbiqi qaydalarının pozulması hallarının qarşısının alınması üçün qəti tədbirlər görülmüş, aksiz markasız və ya digər qanunsuz yollarla ölkəyə gətirilməsinə cəhd göstərilən 534 536 manat dəyərində 5 687 445 ədəd xaricdə istehsal olunan siqaret, 19 051 manat dəyərində 1 593 litr spirtli içkilər saxlanılmışdır.

2017-ci ilin yanvar-dekabr aylarında Komitənin İstintaq İdarəsinin əməkdaşlarının icraatında cəmi 533 cinayət işi olmuşdur ki, həmin cinayət işlərindən 451-i il ərzində başlanmış, 82-si əvvəlki ildən qalıq qalmışdır.

Ötən dövr ərzində icraatda olmuş cinayət işlərinin böyük əksəriyyəti az ağır cinayət faktlarına görə başlanmışdır.

Hesabat ili ərzində İstintaq İdarəsinin icraatında olmuş 533 cinayət işindən 333-ü ittiham aktları ilə baxılması üçün məhkəmlərə göndərilmiş, 64-nün icraatı dayandırılmış, 37-sinin icraatına xitam verilmiş, 8-i digər cinayət işlərinə birləşdirilmiş, 9-u üzrə istintaq aidiyyəti üzrə göndərilmiş, 82-si isə növbəti ilə qalmışdır.

2017-ci ilin yanvar-dekabr ayları ərzində 366 şəxs barəsində 327 cinayət işi ( 6 cinayət işi təkrarla) ittiham aktları ilə baxılması üçün məhkəmələrə göndərilmişdir.

2017-ci ilin yanvar-dekabr ayları ərzində Dövlət Gömrük Komitəsinin İstintaq İdarəsi tərəfindən məhkəmələrə göndərilmiş 4 cinayət işi üzrə məhkəmə, 2 cinayət işi isə Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən ittiham aktı təsdiq edilmədən göstərişlə əlavə istintaqa qaytarılmışdır.Məhkəmələr tərəfindən əlavə istintaqa qaytarılmış 1 cinayət işi üzrə təqsirləndirilən şəxsə yeni məzmunda ittiham elan edilmiş, hər iki orqan tərəfindən əlavə

istintaqa qaytarılmış cəmi 6 cinayət işinin istintaqı tamamlanaraq yenidən məhkəmələrə göndərilmişdir.

2017-cı ildə İstintaq İdarəsi tərəfindən istintaqı tamamlanmış cinayət işləri üzrə 366 nəfər təqsirləndirilən şəxs qismində cəlb edilmiş, təqsirləndirilən şəxslərdən 153 nəfəri barəsində məhkəmə tərəfindən həbs qətimkan tədbiri, qalan 213 nəfəri barəsində isə istintaq orqanı tərəfindən həbslə bağlı olmayan digər qətimkan tədbirləri seçilmişdir.

İstintaqı tamamlanmış cinayət işləri üzrə məsuliyyətə cəlb edilmiş şəxslərdən 28 nəfər İran İslam Respublikasının, 10 nəfər Rusiya Federasiyasının, 10 nəfər Türkiyə Respublikasının, 2 nəfər Ukrayna Respublikasının, 1 nəfər Qazaxıstan Respublikasının, 1 nəfər Belarus Respublikasının, 1 nəfər Hindistan Respublikasının, 1 nəfər Tacikistan Respublikasının, 1-i Türkmənistan Respublikasının, 4 nəfəri İsrail Dövlətinin,1 nəfər Pakistan,1 nəfər Əfqanıstan Respublikasının, qalanları isə Azərbaycan Respublikasının vətəndaşları olmuşdur.

Məhkəmələrə göndərilmiş cinayət işləri üzrə cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərdən 31 nəfəri qadın olmuşdur ki, bunların da 24 nəfəri Azərbaycan Respublikasının, 2 nəfər Rusiya Federasiyasının, 2 nəfər İsrail, 1 nəfər Türkmənistan, 2 nəfər Gürcüstan vətəndaşlarıdır.

## VII. İnformasiya texnologiyalarının və proqram təminatlarının tətbiqi və analitik məlumatların hazırlanması

Hesabat dövründə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin nəzdində Sanitariya-Karantin Müfəttişliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin yanında Dövlət Baytarlıq və Dövlət Fitosanitar Nəzarəti xidmətləri, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi, Dövlət Dəniz Administrasiyası və Fövqəladə Hallar Nazirliyinin Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyi arasında Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemi (VAİS) vasitəsi ilə məlumat mübadiləsinin həyata keçirilməsi təmin edilmişdir.

Həmçinin, “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi (İAMAS) və Azərbaycan Respublikasının Vergilər Nazirliyinin informasiya sistemi ilə məlumat mübadiləsi aparılmışdır.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat Baş İdarəsi tərəfindən təqdim olunmuş qeyri-hökumət təşkilatlarının siyahısına daxil olan təşkilatların cari dövr üzrə idxal-ixrac əməliyyatları haqqında məlumatlar “Qeyri-hökumət təşkilatlarına elektron xidmətlərin göstərilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 20 noyabr 2013-cü il tarixli 3003 saylı Fərmanına uyğun olaraq yaradılmış “Fərdi elektron pəncərə” məlumat sisteminə daxil edilmişdir.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Gürcüstan Maliyyə Nazirliyinin Gəlirlər Xidməti, Ukrayna Dövlət Fiskal Xidməti, İran İslam Respublikasının Mərkəzi Gömrük İdarəsi və Rusiya Federasiyasının Federal Gömrük Xidməti arasında hər iki dövlətin sərhədindən keçən mal və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinin texniki və proqram təminatı məsələləri həll edilmiş, məlumat mübadiləsinin həyata keçirilməsi təmin edilmişdir. Həmçinin, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Qazaxıstan Respublikası Maliyyə Nazirliyinin Dövlət Gəlirləri Komitəsi arasında dövlət sərhədindən keçirilən mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinin təşkili barədə məsləhətləşmələr aparılmışdır.

Müvəqqəti idxal və ya ixrac rejimində mal və nəqliyyat vasitəsi gətirən (aparan) şəxslərin həmin malları vaxtında geri qaytarmasının İAMAS-ın "Sərhədkeçmədə xüsusi diqqət siyahısı" vasitəsi ilə idarə olunması altsistemi təkmilləşdirilmiş, ölkəyə müvəqqəti mal və nəqliyyat vasitəsi gətirən (aparan) və tranzit keçən nəqliyyat vasitələrinin sürücülərinin də dövlət sərhədindən keçidinin nəzarətə götürülməsi təmin edilmişdir.

"VAİS-Hüquqpozmalar" altsistemində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 466 saylı qərarına əsasən təkmilləşdirmələr aparılmış, "Hüquqpozma faktlarının qeydiyyatı üçün ciddi hesabat blankların paylanması", "Hüquqpozma faktlarının aşkarlanması üzrə mükafatlandırma" bölmələri hazırlanmış, yeni hesabat formaları əlavə edilmişdir.

"VAİS-İnventarların idarə edilməsi" altsistemində təkmilləşdirmələr aparılmış, texnika və avadanlıqların alınması və təmiri üzrə sifarişlərin icrası yeni qaydalara uyğunlaşdırılmışdır.

Materialların və cinayət işlərinin qeydiyyatı "VAİS-İstintaq" altsistemində iş prosesində meydana gələn problemlərin həlli ilə əlaqədar təkmilləşdirmələr aparılmışdır.

Qeyd olunanlarla yanaşı, müvəqqəti saxlanc anbarlarında malların yerləşdirilməsi və hərəkəti üzrə "VAİS-Anbar" altsistemi yaradılmış və sistemin istismara verilməsi üzrə işlər davam etdirilir. Sərhəd gömrük orqanlarında yerləşən müvəqqəti saxlanc anbarlarının quruluşunun sistemin tələblərinə uyğunlaşdırılması məqsədilə anbarlarda təmir və yenidənqurma işlərinə başlanılmış, Astara və Biləsuvar gömrük-keçid məntəqələrində təmir işləri başa çatdırılmış, Tovuz Gömrük İdarəsinin "Sınıq körpü" gömrük postunda yeni anbar binası tikilib istifadəyə verilmişdir. Hava Nəqliyyatında Baş Gömrük İdarəsində "VAİS-Anbar" altsisteminin istismara verilməsi üşün hazırlıq işləri tam başa çatdırılmış, digər gömrük-keçid məntəqələrində bu işlərə başlanılması üçün müvafiq tədbirlər görülməkdədir.

Hava nəqliyyatları şirkətləri ilə sərnişinlər haqqında ilkin məlumat mübadiləsinin təmin edilməsi üzrə altsistem hazırlanmış və sistemin istismara verilməsi üzrə işlər davam etdirilir.

"VAİS-İmtahan" altsistemi təkmiləşdirilmiş, sənədlərin elektron qaydada qəbulu təmin edilmiş, namizədlərə vakant yerlərə uyğun vəzifə seçimi imkanı yaradılmış, "VAİS-ödəniş" altsistemində isə təkmilləşdirmələr aparılmış, ölkə ərazisinə gələn nəqliyyat vasitələrinə vurulan əlavə yanacağa görə rüsumun hökumət ödəniş portalı vasitəsi ilə ödənilməsi təmin edilmiş, Komitənin əmr, sərəncam və elanlarının yerləşdirilməsi üçün nəzərdə tutulmuş elan.dgk portalı müasir tələblər nəzərə alınmaqla yenidən qurulmuşdur.

Hesabat dövründə Dövlət Gömrük Komitəsi ilə Ukrayna, Gürcüstan və İran gömrük orqanları arasında, habelə Azərbaycan Hava Yolları Qapalı Səhmdar Cəmiyyəti şirkəti arasında məlumatların təhlükəsiz mübadiləsinin təmin edilməsi üçün şəbəkə qurulmuş və Elektron Hökumət prinsipləri, ən yaxşı beynəlxalq təcrübə və texniki standartlar nəzərə alınmaqla Dövlət Gömrük Komitəsinin internet saytı yenidən işlənilmişdir.

Hesabat ilində "Gömrük rəsmiləşdirilməsi üçün müraciət" üçün 20196, "e-İlkin Məlumatlandırma" üçün 1505, "e-Gömrük Bəyannaməsi/Sərnişin" üçün 904540, "e-idxal/ixrac Əməliyyatlarım" üçün 45994, "e-Gömrük Ekspertizası" üçün 658, "Vətəndaş müraciətləri, sorğu və şikayətlər" üçün 887, "e-GÖÖEN Gömrük ödənişlərinin ödəyicisinin eyniləşdirmə nömrəsinin alınması" üçün 11377, "Gömrük orqanlarına xidmətə qəbul" üçün 730 və "e-Gömrük Ödənişləri" üçün 800751, "Gömrük bəyannamələri haqqında məlumatın verilməsi" üçün 135263, "e-Gömrük Bəyannaməsi/Mal" üçün 379030, "sərhəd gömrük məntəqələrindən daxil olan mallarım haqqında məlumat" üçün 50194 müraciət daxil olmuşdur.

Azərbaycan Respublikası Prezidenti tərəfindən "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da

yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 13 iyul 2016-cı il tarixli 2199 nömrəli Sərəncamın icrası ilə əlaqədar olaraq, beynəlxalq aləmdə baş verən yeniliklərin, ən qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi məqsədi ilə dünyanın ən nüfuzlu reytinq siyahılarından sayılan Ümumdünya İqtisadi Forumunun 2016-2017-ci illər və 2017-2018-ci illər üzrə "Qlobal Rəqabətlilik Hesabatı"nda ölkəmizin sosial-iqtisadi sahələr üzrə mövqeyini əks etdirən Analitik materiallar hazırlanmışdır. Hazırlanmış Analitik materiallarda Dünya İqtisadi Forumu rəqabətqabiliyyətliliyin müəyyən olunması üçün 12 göstərici-keyfiyyət, infrastruktur, makroiqtisadi sabitlik, sağlamlıq və ilkin təhsil, ali təhsil və peşəkar hazırlıq, əmtəə və xidmətlər bazarının səmərəliliyi, əmək bazarının səmərəliliyi, maliyyə bazarının inkişafı, texnoloji səviyyə, daxili bazarın həcmi, şirkətlərin rəqabət qabiliyyəti və innovasiya potensialı üzrə Azərbaycanın mövqeyi əks olunmuş, ölkə üzrə rəqabətqabiliyyətliliyin həm güclü, həm də zəif tərəfləri qeyd olunmuşdur. Eyni zamanda Dövlət Gömrük Komitəsinin 25 illik yubileyi ilə əlaqədar olaraq, Komitənin aparatının aidiyyəti üzrə müvafiq struktur bölmələrinin təqdim etdikləri məlumatlara və digər mənbələrə istinad olunaraq gömrük orqanlarının 25 illik fəaliyyətinə həsr olunmuş "AZƏRBAYCAN GÖMRÜYÜ 25" adlı kitab hazırlanmışdır.

## VIII. Beynəlxalq əməkdaşlıq

2017-ci il ərzində Dövlət Gömrük Komitəsində "İcra intizamının möhkəmləndirilməsi və icraya nəzarətin təşkilinin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 472 nömrəli 26 sentyabr 2006-cı il tarixli Fərmanında nəzərdə tutulmuş tapşırıqların icrası, həmçinin Gömrük qanunvericiliyinin tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının gömrük siyasətinin formalaşdırılması, gömrük işi sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir.

Gömrük işi sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi və genişləndirilməsi məqsədilə, Komitə tərəfindən digər ölkələrin gömrük orqanları ilə beynəlxalq normalara uyğun saziş, protokol və aidiyyəti sənədlər hazırlanmış və digər zəruri tədbirlər görülmüşdür.

2017-ci il ərzində aşağıda qeyd olunan beynəlxalq sənədlər imzalanmışdır:

30 yanvar 2017-ci il tarixində Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Namibiya Respublikasının Maliyyə Nazirliyinin Gömrük və Aksiz Direktorluğu arasında gömrük əməkdaşlarının potensialının gücləndirilməsi sahəsində qarşılıqlı yardım haqqında Saziş";

30 yanvar 2017-ci il tarixində Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında keçirilən mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinin təşkili barədə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Qazaxıstan Respublikasının Maliyyə Nazirliyi arasında Saziş";

30 yanvar 2017-ci il tarixində Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Rusiya Federasiyası Prezidenti yanında Rusiya Xalq Təsərrüfatı və Dövlət Qulluğu Akademiyasının Şimal-Qərb İdarəçilik İnstitutu arasında elm və təhsil sahəsində əməkdaşlığa dair Fəaliyyət Planı";

30 yanvar 2017-ci il tarixində Bakı şəhərində imzalanmış "Kadrların hazırlığı sahəsində əməkdaşlığa dair Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Belarus Respublikası Dövlət Gömrük Komitəsinin Birgə Bəyanatı";

27 mart 2017-ci il tarixində Kiyev şəhərində imzalanmış "GUAM üzv dövlətlərinin gömrük idarələri arasında GUAM üzv dövlətlərinin dövlət sərhədlərindən keçirilən mallar və nəqliyyat

vasitələrinə dair gömrük prosedurlarının müəyyən nəticələrinin qarşılıqlı tanınması üzrə Protokol";

14 iyun 2017-ci il tarixində Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası - Rusiya Federasiyası arasında keçirilən mallar və nəqliyyat vasitələri barədə ilkin məlumat mübadiləsinin təşkilinə dair Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Rusiya Federasiyasının Federal Gömrük Xidməti arasında Protokol";

14 iyun 2017-ci il tarixində Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Qırğız Respublikası Hökuməti yanında Dövlət Gömrük Xidməti arasında kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında Protokol";

19 iyul 2017-ci il tarixində Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında avtomobil nəqliyyatı ilə tranzit daşımalar haqqında ilkin elektron məlumat mübadiləsi sisteminin yaradılmasına dair Saziş;.

Hesabat dövründə Dövlət Gömrük Komitəsi tərəfindən bir neçə regional və beynəlxalq səviyyəli tədbirlər də keçirilmişdir:

Belə ki, 18-26 yanvar 2017-ci il tarixdə Beynəlxalq Gömrük Universitetləri Şəbəkəsinin (INCU) Bakı Regional Ofisində bu qurumun "Qış məktəbi" təqaüd proqramı üzrə təlim;

27 yanvar 2017-ci il tarixdə Azərbaycan Dövlət İqtisad Universitetində "İqtisadi təhlükəsizlik: ticarətin asanlaşdırılması və mühafizəsi aspektləri" adlı elmi-praktiki konfrans;

3-4 aprel 2017-ci il tarixdə Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin gələcək fəaliyyətilə bağlı üçtərəfli texniki görüş;

6 aprel 2017-ci il tarixdə Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində Dövlət Gömrük Komitəsi rəhbərliyinin, İqtisadiyyat Nazirliyi və Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidmətinin nümayəndələri ilə Rusiya Federasiyası Federal Gömrük Xidməti və Baytarlıq və Fitosanitar Nəzarəti üzrə Federal Xidmətinin nümayəndələri arasında görüş;

8 may 2017-ci il tarixdə Dövlət Gömrük Komitəsində Avropa İttifaqının Texniki Yardım və İnformasiya Mübadiləsi Aləti-TAİEX tədbirlərinin icrası ilə əlaqədar müzakirələrin aparılması üçün Avropa Komissiyasının nümayəndələri ilə görüş;

28 may-1 iyun 2017-ci il tarixdə BMT-nin Narkotiklər və Cinayətkarlıq İdarəsi və ÜGT-nin konteynerlərə nəzarət üzrə Qlobal Proqramı"nın əməkdaşlarından ibarət nümayəndə heyətinin Azərbaycan Respublikasına səfəri çərçivəsində ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin nəzdində yaradılmış ÜGT-nin Konteyner və Karqo üzrə Təlim Mərkəzində, Astara Gömrük İdarəsində, həmçinin 31 may 2017-ci il tarixdə Dövlət Gömrük Komitəsinin rəhbərliyi ilə görüş;

2 iyun 2017-ci il tarixdə Naxçıvan şəhərində Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat - GUAM Ticarət və Nəqletməyə Yardım Layihəsi üzrə Rəhbəredici Komitənin 26-cı iclası;

5-9 iyun 2017-ci il tarixdə ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində Azərbaycan gömrük xidməti əməkdaşları üçün "Sərnişinlərə dair əvvəlcədən məlumat və Sərnişin adlarının qeydiyyatı" sisteminə dair milli seminar;

12-14 iyun 2017-ci il tarixdə Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Regional Tədris Mərkəzində ÜGT-nin akkreditasiyadan keçmiş mütəxəssisləri tərəfindən "Gömrük Laboratoriyasının Modernləşdirilməsi" üzrə milli seminar;

14 iyun 2017-ci il tarixdə Bakı şəhərində Müstəqil Dövlətlər Birliyi üzv dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 65-ci iclası;

16 iyun 2017-ci il tarixdə Bakı şəhərində ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq Proqramı (CAREC) çərçivəsində Regional Tranzit Ticarətinin Asanlaşdırılması üzrə seminar;

21 iyun 2017-ci il tarixdə Dövlət Gömrük Komitəsində ABŞ Ticarət Departamentinin Kommersiya Hüququnun İnkişafı Proqramının müşaviri xanım Arezo Yazdın rəhbərlik etdiyi nümayəndə heyəti ilə Dövlət Gömrük Komitəsinin nümayəndələri ilə görüş;

22 iyun 2017-ci il tarixdə Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində Mərkəzi Asiya dövlətlərinin hüquq-mühafizə orqanları nümayəndələrinin azərbaycanlı həmkarları ilə görüşü;

23 iyun 2017-ci il tarixdə Rusiya Federasiyasının Dərbənd şəhərində sərhədyanı gömrük buraxılış məntəqələrində yaranan problemlərin operativ həll edilməsi üçün məlumat mübadiləsinin aparılması və qarşılıqlı fəaliyyətin səmərəliliyinin artırılması üzrə tədbirlərin hazırlanması məqsədilə Azərbaycan və Rusiya gömrük xidmətlərinin nümayəndələri arasında işçi görüş;

3-5 iyul 2017-ci il tarixdə Qusar şəhərində "Gömrük idarəçiliyində aktual məsələlər və çağırışlar "mövzusunda II Beynəlxalq Tələbə Konfransı;

19 iyul 2017-ci il tarixdə Bakı şəhərində Azərbaycan, Gürcüstan və Türkiyə gömrük xidməti rəhbərlərinin üçtərəfli yüksək səviyyəli görüşü;

9 avqust 2017-ci il tarixdə Dövlət Gömrük Komitəsində Özbəkistan Azərbaycan Respublikasının Gömrük Xidmətinin nümayəndə heyəti ilə Dövlət Gömrük Komitəsinin nümayəndələri ilə görüş;

10 avqust 2017-ci il tarixdə Bakı şəhərində Ümümdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Regional Ofisində Azərbaycan və Rusiya gömrük xidmətlərinin nümayəndələri arasında növbəti işçi görüş;

29 avqust 2017-ci il tarixdə Dövlət Gömrük Komitəsində Qırğızıstan Dövlət Gömrük Xidmətinin nümayəndə heyəti ilə Dövlət Gömrük Komitəsinin nümayəndələri ilə görüş;

12 sentyabr 2017-ci il tarixdə Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində beynəlxalq avtomobil daşımalarının elektronlaşdırılması məsələləri ilə bağlı görüş;

18 sentyabr 2017-ci il tarixdə Azərbaycan Respublikasının Qəbələ şəhərində Ümumdünya Gömrük Təşkilatının MDB ölkələri üzrə hüquq-mühafizə fəaliyyətinə dair RILO-Moskva Regional Məlumat Əlaqələndirmə Qovşağının iştirakçı ölkələrinin gömrük xidmətlərinin milli əlaqələndirmə qovşağı rəhbərlərinin 16-cı iclası;

20 sentyabr 2017-ci il tarixdə Azərbaycan Respublikasının Qəbələ şəhərində Müstəqil Dövlətlər Birliyi üzv dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının Hüquq-Mühafizə Bölmələri Başçıları Komitəsinin 16-cı iclası;

11 oktyabr–14 dekabr 2017-ci il tarixdə Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində DHL Azərbaycan nümayəndəliyinin əməkdaşları üçün gömrük məsələlərinə dair təlim;

21-22 noyabr 2017-ci il tarixdə Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində BMTNCİ-nin və ÜGT-nin “Konteyner daşımalarına nəzarət üzrə qlobal proqramı” çərçivəsində kimyəvi maddələrin axtarışı üzrə regional əməliyyatın nəticələrinə dair regionlararası görüş;

23-25 noyabr 2017-ci il tarixdə “Konteyner Daşımalarına Nəzarət üzrə Qlobal Proqram” çərçivəsində Qazaxıstan Respublikası Maliyyə Nazirliyi Dövlət Gəlirlər Komitəsinin mərkəzi

aparatının və “Morport Aktau” gömrük postunun liman nəzarətinin əməkdaşlarından ibarət nümayəndə heyətinin Bakı şəhərinə səfəri;

27-29 noyabr 2017-ci il tarixdə Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Gömrük yoxlaması və təhqiqat funksiyalarının təkmilləşdirilməsi" mövzusunda seminar;

30 noyabr-1 dekabr 2017-ci il tarixdə Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatının Regional Tədris Mərkəzində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşları üçün "Ümumi tranzit proseduru və yeni kompüterləşdirilmiş tranzit sistemi" mövzusunda təlim-seminar;

5-7 dekabr 2017-ci il tarixdə Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində Şərq Tərəfdaşlığı olkələri üçün inteqrə edilmiş Sərhəd İdarəciliyi üzrə Potensialın Gücləndirilməsi Layihəsi çərçivəsində Ümumi Tranzit Konvensiyası və Yeni Kompyuterləşdirilmiş Tranzit Sisteminə (NCTS) dair Azərbaycan gömrük xidmətinin əməkdaşları üçün milli seminar;

12-14 dekabr 2017-ci il tarixdə Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində BMTNCİ-nin və ÜGT-nin “Konteyner daşımalarına nəzarət üzrə qlobal proqramı” çərçivəsində plombalardan qanunsuz istifadənin aşkar olunması uzrə regional təlim;

14-15 dekabr 2017-ci il tarixdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının tələbələri və Azərbaycan gömrük xidmətinin əməkdaşları üçün Rusiya Gömrük Akademiyasının Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasının professoru, hüquq elmləri doktoru Şaqiyeva Rozalina Vasilyevna tərəfindən “Gömrük cinayətlərinə görə cinayət məsuliyyəti (qaçaqmalçılıq nümunəsində)” mövzusunda mühazirə;

9-20 dekabr 2017-ci il tarixdə Litva Respublikası Dövlət Qida və Baytarlıq Xidməti, Litva Respublikası Maliyyə Nazirliyi yanında Gömrük Departamenti və Litva Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Bitki Xidmətinin nümayəndələri “Azərbaycan və Gürcüstan arasında Qırmızı Körpü sərhəd buraxılış məntəqəsinin inkişaf etdirilməsinə dəstək” layihəsi çərçivəsində Azərbaycan və Gürcüstan gömrük əməkdaşlarının iştirakı ilə “Sərhədlərdə elektron sistem və məlumat mubadiləsi” mövzusunda ikitərəfli seminar;

20 dekabr 2017-ci il tarixdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Biləsuvar Gömrük İdarəsində Azərbaycan və İran gömrük xidmətlərinin nümayəndələri arasında ikitərəfli işçi görüş və 25-26 dekabr 2017-ci il tarixdə Dövlət Gömrük Komitəsində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Türkiyə Respublikası Gömrük və Ticarət Nazirliyinin nümayəndələri arasında keçirilən işçi görüş ölkələrarası münasibətlərin yüksək xəttlə inkişafının bariz nümunəsi kimi dəyərləndirilir.

Yuxarıda qeyd olunanlarla yanaşı hesabat dövründə Komitə rəhbərliyi bir sıra ikitərəfli görüşlə həyata keçirmişdir:

Belə ki, 25 yanvar 2017-ci il tarixdə İran İslam Respublikasının Qərbi Azərbaycan vilayətinin Gömrük İdarəsinin rəisi Pərviz Təqəbinin başçılıq etdiyi nümayəndə heyəti ilə, 25 yanvar 2017-ci il tarixdə Laos Xalq-Demokratik Respublikası Maliyyə Nazirliyinin Gömrük Departamentinin baş direktor müavini Somphet Sivonqksainin rəhbərlik etdiyi nümayəndə heyəti ilə, 27 yanvar 2017-ci il tarixdə Ukrayna Dövlət Fiskal Xidmətinin sədri Roman Nəsirovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə, 3 mart 2017-ci il tarixdə Küveyt Dövlətinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Səud Əbdüləziz Məhəmməd əl-Şəmlan əl-Ruminin başçılıq etdiyi nümayəndə heyəti ilə, 12 aprel 2017-ci il tarixdə Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat

- GUAM-ın baş katibi Altay Əfəndiyev ilə, 17 may 2017-ci il tarixdə Yaponiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Teruyuki Katori ilə, 25 may 2017-ci il tarixdə İsrail Dövlətinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Dan Stavın rəhbərlik etdiyi nümayəndə heyəti ilə, 12 iyun 2017-ci il tarixdə Özbəkistan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Muidjon Toxiriyin rəhbərlik etdiyi nümayəndə heyəti ilə, 13 iyun 2017-ci il tarixdə Qazaxıstan Respublikası Maliyyə Nazirliyinin Dövlət Gəlirlər Komitəsinin sədri Ardak Tengebayevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə, 30 avqust 2017-ci il tarixdə Serbiya Respublikası Maliyyə Nazirliyinin Gömrük İdarəsinin Beynəlxalq Gömrük Əməkdaşlığı və Avropa İttifaqına İnteqrasiya Departamentinin rəhbəri xanım Gordana Vidanovicin rəhbərlik etdiyi nümayəndə heyəti ilə, 3 oktyabr 2017-ci il tarixdə İsrail Dövlətinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Dan Stavın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşlər keçirilmişdir. Həmçinin, 5 oktyabr 2017-ci il tarixdə Avropa İttifaqının Azərbaycandakı daimi nümayəndəliyinin rəhbəri Kestutis Yankauskasın rəhbərlik etdiyi nümayəndə heyəti ilə, 5 oktyabr 2017-ci il tarixdə Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Serhan Aktoprakın rəhbərlik etdiyi nümayəndə heyəti ilə, 27 oktyabr 2017-ci il tarixdə İran İslam Respublikasının İqtisadiyyat və maliyyə naziri, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının həmsədri Məsud Kərbasianın rəhbərlik etdiyi nümayəndə heyəti ilə, 8 noyabr 2017-ci il tarixdə Meksika Birləşmiş Ştatlarının ölkəmizdəki səfiri Xuanrodriqo Labardini Floresin rəhbərlik etdiyi nümayəndə heyəti ilə, 17 noyabr 2017-ci il tarixdə Əfqanıstan İslam Respublikası maliyyə nazirinin müavini Nəcibullah Vardakın rəhbərlik etdiyi nümayəndə heyəti ilə, 27 noyabr 2017-ci il tarixdə Ümumdünya Gömrük Təşkilatı Katibliyinin əməkdaşı David Kane ilə aidiyyəti məsələlərin ikitərəfli müzakirəsi üzrə görüşlər keçirilmişdir.

## IX. Kadr məsələləri, peşəkarlığın artırılması və tibbi xidmətin göstərilməsi

Hesabat ilində kadrların seçimi və yerləşdirilməsi ilə əlaqədar müvafiq işlər görülmüşdür.

Belə ki, Komitənin internet saytı vasitəsi ilə gömrük xidmətinə işə qəbul üzrə ərizələrin qəbulu, ərizəçilərin məlumatlandırılması və gömrük xidmətinə qəbulu üzrə test imtahan sistemi təkmilləşdirilmiş və "Kadrların idarə edilməsi" altsistemi ilə inteqrasiyası təmin edilmişdir. Sistemin test bankının "İnformasiya texnologiyaları" və "Ümumi hissə və əlavə blok" bölmələrinə yeni test sualları əlavə olunmuşdur.

2017-ci ildə 138 nəfər işə qəbul edilmiş, 137 nəfər əməkdaş isə işdən azad edilmişdir. Eyni zamanda, 172 nəfər tutduğu vəzifədən daha yüksək vəzifəyə təyin edilmiş, 21 nəfər isə tutduğu vəzifədən daha aşağı vəzifəyə keçirilmişdilər.

Hesabat dövründə müraciətlər əsasında təşkil olunmuş test imtahanlarında 565 nəfər iştirak etmiş, təsdiq olunmuş qaydalara uyğun olaraq, daha yüksək bal toplayanlar növbəti müsabiqə mərhələsinə buraxılmış, müsabiqədən keçənlər aidiyyəti üzrə vakant iş yerlərinə təyin olunmuşdur.

2017-ci ildə Dövlət Gömrük Komitəsinin Akademiyasında xidmətə yeni qəbul edilmiş 53 nəfər gömrük əməkdaşına gömrük işi tədris edilmişdir.

2016-2017-ci tədris ilində Dövlət Gömrük Komitəsinin Akademiyasına 44 nəfər tələbə qəbul olunmuş, onlardan 22 nəfəri dövlət sifarişi (iqtisadiyyat ixtisası üzrə), 22 nəfəri isə ödənişli əsaslarla (hüquqşünaslıq ixtisası üzrə) təhsil alırlar. Hal-hazırda Dövlət Gömrük Komitəsinin Akademiyasında ümumilikdə bakalavr səviyyəsi üzrə 171 tələbə təhsil alır.

Hesabat dövrü ərzində 5 nəfər gömrük əməkdaşı Rusiya Gömrük Akademiyasında təhsilini davam etdirmiş və 3 nəfər gömrük əməkdaşı isə adı çəkilən Akademiyanı bitirmişdir.

2017-ci ildə xarici dövlətlərin və beynəlxalq təşkilatların dəstəyi ilə Bakı şəhərində və dünyanın bir çox ölkələrində keçirilmiş forum, konfrans, təlim, seminar, kurs və digər mühüm peşəkarlığın artırılması yönümlü tədbirlərdə Dövlət Gömrük Komitəsinin və onun struktuna daxil olan gömrük orqanlarının əməkdaşları iştirak etmişlər.

Hesabat ilində xidmətdə qazandıqları nailiyyətlərə və xidməti vəzifələrini yerinə yetirərkən yüksək operativlik və sayıqlıq göstərdiklərinə görə gömrük əməkdaşlarından 214 nəfər Fəxri Fərman ilə təltif edilmiş, 11 nəfər gömrük əməkdaşı "Gömrük xidməti əlaçısi" döş nişanları ilə təltif edilmiş, 15 nəfər əməkdaşa verilən intizam tənbehi üzərindən götürülmüşdür.

Şəxsi heyətlə iş üzrə İdarənin digər funksiyalarının həyata keçirilməsi sahəsində fəaliyyətin daha da genişləndirilməsi məqsədilə İdarənin funksiyalarının yerinə yetirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilmişdir. Belə ki, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin aparatında və Komitənin sisteminə daxil olan qurumlarda şəxsi heyətlə işin təşkilinin gücləndirilməsi məqsədi ilə məsul şəxslər müəyyən edilmiş, məsul şəxslərin siyahısı və konkret vəzifələri Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 05 may 2017-ci il tarixli 100/092 nömrəli sərəncamı ilə təsdiq edilmişdir. Hazırda bu istiqamətdə müntəzəm şəkildə iş aparılır.

Gömrük orqanı əməkdaşlarına xidmətdə və xidmətdənkənar vaxtlarda, o cümlədən, gündəlik həyatda davranış qaydalarının, əxlaqi prinsiplərin, etik davranış normalarının, şəxsi məsuliyyət, qanunlara riayət edilməsi, özünə və başqalarına münasibət prinsiplərinin və ictimaiyyətlə münasibətdə etik və digər məsələlərin həllinə dair vəzifələrin aşılanması, daha da inkişaf etdirilməsi və şəxsi heyətlə işin gücləndirilməsi məqsədi ilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 09 oktyabr 2017-ci il tarixli 100/174 nömrəli sərəncamına əsasən Komitənin aparatının struktur bölmələrində və Komitənin strukturuna daxil olan gömrük orqanlarında “Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin Etik Davranış Kodeksi”ndən irəli gələn məsələlər barədə seminar-məşğələlər təşkil olunmuşdur.

Hesabat dövründə Tibbi Xidmət İdarəsinin Mərkəzi Gömrük Hospitalında müayinə və müalicə işləri aparılmış və bu proses daima nəzarətdə saxlanılmışdır.

Hospitalın bütün şöbə və bölmələrinin fəaliyyəti zamanı müraciət edən hər bir şəxsə qayğı ilə yanaşılmış, aidiyyəti mütəxəssisə göndərilməsi, istənilmiş müayinələrdən qısa zaman kəsiyində keçmələri, müalicə növündən asılı olmayaraq ən yüksək səviyyədə tibbi xidmət almaları təmin edilmişdir.

Hesabat ili ərzində Hospitalda aparılan cərrahi əməliyyatların çeşidi və sayı artmış, peşəkar həkimlərinin iştirakı ilə bir sıra ağır əməliyyatların icrasına başlanmışdır.

Hospitalda çalışan bir sıra həkimlər elmi-tədqiqat araşdırmalar aparmaqla respublikamızın, eyni zamanda xarici ölkələrin tibb jurnallarında elmi məqalələr dərc etdirmişlər. Hospitalda çalışan əməkdaşlardan 1 nəfər elmi-tədqiqat işlərini bitirərək tibb elmləri namizədi – alimlik dərəcəsi almışdır. Hazırda hospitalda 2 t.e.d.- professor, 20 tibb elmləri namizədi çalışır. Hospitalın həkim heyəti il ərzində gömrük xidməti əməkdaşlarının sağlamlığının qorunmasını nəzarətdə saxlamışdır.

## X. Dövlət orqanları və ictimaiyyətlə əlaqələr

2017-ci il ərzində Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından, Azərbaycan Respublikasının Nazirlər Kabinetindən, Milli Məclisindən, hüquq mühafizə orqanlarından, nazirlik və komitələrdən, digər mərkəzi icra hakimiyyəti orqanlarından, xarici ölkələrdən, səfirliklərdən, beynəlxalq təşkilatlardan, hüquqi şəxslərdən, respublikanın gömrük orqanları və təşkilatlarından, həmçinin, vətəndaşlardan və əcnəbi vətəndaşlardan 32464 sənəd daxil olmuş və aidiyyəti üzrə 18194 sənəd xaric olmuşdur.

Hesabat dövründə Komitənin Katibliyi ilə birgə Dövlət Gömrük Komitəsində vətəndaşların qəbulunun texniki məsələlərinin həlli təmin edilmiş, "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının 30 sentyabr 2015-ci il tarixli 1308-IVQ nömrəli Qanununa uyğun olaraq, ümumi şöbədə vətəndaşların komitəyə müraciətləri əlifba sırası ilə kompüterdə qeydiyyata alınmış, onlarla bağlı qeydiyyat-nəzarət vərəqələri tərtib olunmuş, müraciətlərin icrası xüsusi nəzarətə götürülmüşdür.

Aylıq olaraq xarici ticarəti əks etdirən məlumat bazası Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə, Mərkəzi Bankına, Vergilər Nazirliyinə, İqtisadiyyat Nazirliyinə təqdim olunmuş, 2017-ci il üzrə hər ay idxal-ixrac əməliyyatları Azərbaycan Respublikası xarici ticarətinin gömrük statistikasının metodologiyasına müvafiq olaraq təhlil edilmiş və Azərbaycan Respublikası Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, İqtisadiyyat Nazirliyinə təqdim olunmuşdur. Azərbaycan Respublikası xarici ticarətinin gömrük statistikası bülletenlərinin Komitənin internet saytında yerləşdirilmişdir.

2017-ci il ölkəmizin gömrük orqanlarının həyatında müstəqil gömrük orqanlarının yaradılmasının 25 illiyi ilə əlaqədar keçirilən tədbirlər "Gömrük xəbərləri" qəzetində, eləcə də respublikamızın digər kütləvi informasiya vasitələrində öz əksini tapmışdır.

Hesabat dövründə fiziki şəxslər tərəfindən məktublara, teleqram və telefonoqramlara həmçinin, Komitənin rəsmi internet səhifəsi və 195 nömrəli "Çağrı Mərkəzi" vasitəsi ilə daxil olan bütün müraciətlərə aidiyyəti üzrə cavablar verilmişdir.

Ötən dövr ərzində ölkəmizdə yaşayan xarici ölkə vətəndaşlarının - iş adamlarının, xarici ölkə nümayəndəliklərinin maraqları nəzərə alınaraq "Gömrük xəbərləri" qəzetində materialların həm rus, həm də ingilis dillərində dərc edilmiş, ölkəmizin gömrük sistemində baş verən yeniliklərlə məlumatlandırılması təmin edilmişdir.

Azərbaycan Respublikası gömrük orqanlarının bütün istiqamətlərdə gördüyü işlər - istər fiskal siyasətin həyata keçirilməsində, istər hüquq-mühafizə orqanı kimi gömrük sahəsində hüquqpozmalara qarşı mübarizədə, mədəni sərvətlərin qorunmasında, gömrük nəzarətinin təşkilində, Azərbaycan gömrük orqanlarının beynəlxalq imicinin möhkəmlənməsi, xidmət səviyyəsinin dünya standartlarına uyğunlaşdırılması və digər çox şaxəli fəaliyyəti o cümlədən, analtik informasiya icmalı "Gömrük xəbərləri" və ölkənin digər kütləvi informasiya vasitələrində, eyni zamanda Komitənin rəsmi internet saytında işıqlandırılmışdır.

2017-ci il üzrə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən görülən səmərəli işlərin və islahatların növbəti illərdə də davam etdirilməsi üçün bütün imkanlar səfərbər olunacaqdır.

**Komitənin sədri** **Aydın Əliyev**